*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 5 sentyabr 2015-ci il | № 68 (1984) | Qiyməti 25 qəpik


# Gücümüz birliyimizdədir

## Müdafiə naziri "TurAz Qartalı - 2015" təlimlərində iştirak edən şəxsi heyətlə görüşüb



***Azərbaycanla Türkiyə qardaş ölkələrdir və əslində bu, hər iki dövlət arasında mövcud olan siyasi, iqtisadi, hərbi, mədəni sahələrdə və sadəcə insani əlaqələrdə özünü bütün dolğunluğu ilə büruzə verir. Hətta beynəlxalq münasibətlərdə Türkiyə daim Azərbaycanın, Azərbaycan isə Türkiyənin yanındadır və bir-birinə hərtərəfli dəstək verir.***

Strateji tərəfdaşlıq münasibətlərinə malik Azərbaycanla Türkiyə arasında bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də əməkdaşlıq yüksələn xətt üzrə inkişaf etməkdədir. Hələ bu ilin yanvarında Ankarada Azərbaycan və Türkiyə Prezidentlərinin danışıqları zamanı hərbi əməkdaşlığın inkişafı məsələləri də müzakirə edilmişdi. O zaman Azərbaycanın dövlət başçısı müdafiə sahəsində əməkdaşlığın dərinləşdirilməsi üzrə böyük planlar olduğunu söyləmiş, birgə hərbi təlimlərin keçirilməsini razılıq hissi ilə vurğulamış, bu təlimlərin müntəzəm olacağını bildirmişdi. Azərbaycan Prezidenti iftixar hissilə söyləmişdi: "Türkiyə nə qədər güclüdürsə, Azərbaycan da o qədər güclənəcək".

Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənovun aprelin 30-da Bakıda səfərdə olan Türkiyə Silahlı Qüvvələri Quru Qoşunları Qərargahının rəisi, korpus generalı İhsan Uyarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən ölkələrimiz arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd etməsi də olduqca diqqətçəkən məqamlardandır. Regionda sülhə və əmin-amanlığa nail olmaq üçün bir-birimizə dəstək durmağın zəruriliyini qeyd edən Azərbaycanın Müdafiə naziri sevincimizin, gücümüzün və inkişafımızın birliyimizdə olduğunu vurğulamışdı.

Azərbaycan rəhbərliyinin iki ölkə arasında hərbi əməkdaşlıqla bağlı mövqeyi bu istiqamətdə həyata keçirilən tədbirlərdə özünü büruzə verməkdədir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, bir müddət öncə, yəni mart və aprel aylarında iki dövlət arasında qardaş ölkənin Konya şəhərində "TurAz Şahini - 2015" təlimləri yüksək səviyyədə baş tutmuşdu. Mayda isə Naxçıvanda iki ölkənin ordu bölmələrinin iştirakı ilə təlim keçirilmişdi.

Keçirilən təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmanı, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Budur, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin bölmələri yenə birlikdədir. Azərbaycan Respublikası Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata əsasən, hər iki ölkənin aviasiya vasitələrinin iştirakı ilə hərbi aerodromlarımızın birində birgə taktiki təlimlər başlayıb.

(Ardı 2-ci səhifədə)

---

## Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1997-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1980-1996-cı illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2015-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2015-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 sentyabr 2015-ci il.

---

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın xarici işlər naziri Sergey Lavrovu qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.***

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəsinin Dövlət bayramı - Rusiya Günündə birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Azərbaycana səfər etməsinə ölkəmizdə böyük önəm verildiyini dedi və bu səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif sahələri ilə bağlı məsələlərin operativ və səmərəli şəkildə həll olunduğunu vurğulayaraq, bu baxımdan müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Azərbaycan ilə Rusiyanın beynəlxalq qurumlar çərçivəsində də fəal və uğurlu qarşılıqlı fəaliyyət göstərdiklərini bildirən dövlətimizin başçısı İlham Əliyev dünyada və regionda hadisələrin sürətlə inkişaf etdiyi bir dövrdə ölkələrimizin həyata keçirdikləri mütəmadi məsləhətləşmələrin də önəmli olduğunu qeyd etdi. Prezident İlham Əliyev dedi: "Bunlar ölkələrimiz arasında bütün sahələri, o cümlədən siyasi, iqtisadi, energetika, humanitar sahələrdə əməkdaşlığı əhatə edən strateji tərəfdaşlıq münasibətlərinin ən bariz nümunəsidir. Biz ikitərəfli münasibətlərimizi bundan sonra da səmərəli və uğurla inkişaf etdirmək niyyətindəyik". Prezident İlham Əliyev bugünkü görüş zamanı da məhsuldar və konstruktiv müzakirələrin aparılacağına əmin olduğunu bildirdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Rusiyanın xarici işlər naziri Prezident Vladimir Putinin ən səmimi salamlarını dövlətimizin başçısına çatdıraraq dedi: "Rusiya Federasiyasının Prezidenti yüksək səviyyədə təşkil olunan və keçirilən ilk Avropa Oyunlarının açılış mərasimində iştirakını və səfəri çərçivəsində Sizinlə görüşünü məmnunluqla xatırlayır. Azərbaycan və Rusiya Cənubi Qafqazda, Xəzər dənizi hövzəsində strateji tərəfdaş ölkələrdir və ümumilikdə, demək olar ki, beynəlxalq münasibətlərin bütün vacib və mürəkkəb məsələlərinin həlli ilə bağlı çox yaxın mövqelərə malikdirlər".

İki ölkənin Xarici İşlər nazirlikləri arasında BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərimizin qarşılıqlı fəaliyyət məsələlərinin müzakirəsinin əhəmiyyətinə toxunan Sergey Lavrov uğurla inkişaf edən parlamentlərarası əməkdaşlığımızın da Rusiya tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. Əlaqələrimizin müxtəlif sahələrinə toxunan Rusiyanın xarici işlər naziri dedi: "Bu ilin avqustunda Xəzər donanmasının 3 hərbi gəmisinin Azərbaycana səfərinin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığımızı bildirirəm. Ümidvarıq ki, azərbaycanlı dostlarımız bu ilin sentyabrında Sverdlovsk vilayətində keçiriləcək hərbi-texniki məhsulların sərgisində iştirak edəcəklər".

**AZƏRTAC-ın materialları əsasında**

---

## Milli Məclisin sədri Parlament sədrlərinin Ümumdünya Konfransında çıxış edib

***BMT-nin qərargahında Parlament sədrlərinin 4-cü Ümumdünya Konfransı öz işini davam etdirib. Konfransda Azərbaycanı Milli Məclisin sədri Oqtay Əsədov başda olmaqla hazırda Nyu-Yorkda işgüzar səfərdə olan nümayəndə heyəti təmsil edir.***

Oqtay Əsədov konfransda çıxış edib. O, ölkəmizin dövlət müstəqilliyi bərpa ediləndən keçən dövr ərzində Azərbaycanda qazanılmış uğurlar və demokratik inkişaf prinsipləri barədə söhbət açıb. O.Əsədov konfransın təşkilatçılarının bu təşəbbüsünü yüksək qiymətləndirərək vurğulayıb ki, belə tədbirlər bütün dünyada sülhün və davamlı inkişafın təmin edilməsi işində parlamentlərin əməkdaşlığı üçün şərait yaradır. Milli Məclisin spikeri qeyd edib ki, 4-cü Ümumdünya konfransının bəyannamə layihəsində parlamentlərarası əməkdaşlığın problemləri və vəzifələri, o cümlədən müharibələrin və münaqişələrin qarşısının alınmasına yönəlmiş səylər, terrorizmə, mütəşəkkil cinayətkarlığa, insan alverinə, narkotik maddələr alverinə qarşı mübarizə, habelə gender bərabərliyinin yaxşılaşdırılması və yoxsulluğun aradan qaldırılması məsələləri göstərilir. Bununla bərabər, O.Əsədov təəssüflə qeyd edib ki, təcavüzkar etnik separatizm problemi bəyannaməyə daxil edilməyib. O, sözünə davam edərək deyib ki, təcavüzkar etnik separatizm təkcə ayrı-ayrı regionlar üçün deyil, bütün planetdə sülhün və təhlükəsizliyin təmin edilməsi üçün təhdid mənbəyidir.

Milli Məclisin spikeri deyib ki, Ermənistan ilə Azərbaycan arasında silahlı münaqişə nəticəsində Azərbaycan təcavüzkar separatizmin qurbanı olub. 20 ildən çoxdur ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır. Azərbaycana qarşı hərbi təcavüzün gedişində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ regionunda aparılmış etnik təmizləmə nəticəsində minlərlə dinc sakin həlak olub. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə dünya birliyi adından Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığını təsdiq edən, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. O.Əsədov dünya birliyinə müraciətlə təcavüzkarlar tərəfindən beynəlxalq hüququn pozulması faktlarının pislənməsində həmrəy olmağa və bu istiqamətdə qəti addımlar atmağa çağırıb.

**AZƏRTAC-ın materialları əsasında**

---

## İtaliyanın "Notizie Geopolitiche" xəbər portalı Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində gərginliyin artmasından bəhs edir

***İtaliyanın "Notizie Geopolitiche" xəbər portalında Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində gərginliyin artması ilə bağlı növbəti məqalə yer alıb.***

Yazıda son zamanlar tərəflər arasında atəşkəsin tez-tez pozulması halları təhlil olunur. Diqqətə çatdırılır ki, uzun illər davam edən münaqişə nəticəsində Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik yeddi rayonu işğal olunub, bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib.

Məqalədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin fikirlərinə də yer verilib. O, ermənilər tərəfindən azərbaycanlıların haqlarının tez-tez pozulması və bu xüsusda 1992-ci ilin fevralında Xocalıda azərbaycanlılara qarşı törədilmiş vəhşilikləri xatırladıb.

Müəllif yazır ki, münaqişənin həlli istiqamətində iyirmi ildən artıq davam edən danışıqlar prosesi hələ də bir nəticə verməyib. BMT Təhlükəsizlik Şurası Ermənistan işğalçı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair dörd qətnamə qəbul edib. Buna baxmayaraq, Ermənistan hələ də hərbi qüvvələrini həmin ərazilərdən çıxarmayıb.

# Müdafiə naziri Böyük Britaniya səfiri ilə görüşüb



***Sentyabrın 3-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İrfan Siddiq ilə görüşüb.***

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın işğal edilmiş ərazilərindəki qondarma separatçı rejimin nümayəndələrinin bəzi beynəlxalq qurumlar tərəfindən qəbul edilməsinin narahatçılıq doğurması ifadə olunaraq, bölgədəki hərbi-siyasi vəziyyət, ölkələrimiz arasında hərbi əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Eyni zamanda Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Böyük Britaniyaya planlaşdırılan səfəri barədə məsələlər də müzakirə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 4-də Xocavənd rayonunun Kuropatkino kəndi yaxınlığındakı təmas xəttində monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata əsasən, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Saymon Tiller və Piter Svedberq keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, səhra köməkçiləri Jiri Aberle və Yevgeni Şarov keçiriblər.

# Gücümüz birliyimizdədir

## Müdafiə naziri “TurAz Qartalı - 2015” təlimlərində iştirak edən şəxsi heyətlə görüşüb





**(Əvvəli 1-ci səhifədə)**

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti, eləcə də Türkiyənin ölkəmizdəki səfiri İsmayıl Alper Coşkun "TurAz Qartalı - 2015" birgə taktiki təlimlərində iştirak edən Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələri aviasiya vasitələrinin yerləşdiyi aerodroma gəliblər.

Əvvəlcə hər iki dövlətin himnləri səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq çıxışına ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövət" və türk xalqının öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə başlayıb.

Ölkələrimizin təhlükəsizliyi baxımından təlimlərin əhəmiyyətini vacib sayan Müdafiə naziri bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu qeyd edib. O, təlim iştirakçılarına uğurlar arzulayaraq döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsindən məmnun qaldığını ifadə edib.



Təlimlərin Azərbaycanda keçirilməsinin vacibliyini vurğulayan səfir İ.Coşkun qürur hissi keçirdiyini bildirərək son illərdə bu cür birgə təlimlərin keçirilməsinin artıq ənənə halını almasını xüsusi qeyd edib.

Sonra təlimlərin məqsədi, şəxsi heyətin hazırlığı, yerləşməsi, cəlb edilən qüvvələr, icra edilən tapşırıqlar, aviasiya vasitələrinin uçuşu və istifadəsi barədə brifinq təqdim olunub.

Müdafiə naziri uçuş və texniki heyətlə görüşərək döyüş aviasiyasına baxış keçirib, onların taktiki-texniki xüsusiyyətləri, tətbiqi imkanları, həmçinin müxtəlif təyinatlı atəş sistemlərinin hazırlıq səviyyəsi ilə maraqlanıb.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının uğurla davam etdirilməsi şərəfinə, ənənəyə uyğun olaraq, qurban kəsilib.

Silahlı Qüvvələrin mahnı və rəqs ansamblının geniş konsert proqramından sonra təlimlərdə iştirak edən aviasiya vasitələrinin nümunəvi uçuşları nümayiş olunub.

Qonaqlar və təlim iştirakçıları birlikdə nahar ediblər.

**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrimizdə peşəkarlığın möhkəmləndirilməsi əsas məqsəddir

***Azərbaycanın milli maraqlarının müdafiəsində Silahlı Qüvvələrimiz aparıcı mövqeyə malikdir. Ümumiyyətlə, Silahlı Qüvvələrin təşkili mahiyyət etibarilə Azərbaycanın dövlət quruculuğunun mühüm tarixi nailiyyətlərindəndir. Ordumuzun tarixi, əslində, müstəqilliyimizin tarixidir, Azərbaycan xalqının suverenliyinin tarixidir. Məhz bu səbəbdən ordu quruculuğu ölkə rəhbərliyi tərəfindən prioritet vəzifə elan edilib.***



Bu gün Azərbaycan Silahlı Qüvvələrinin çoxsaylı bölmələri döyüş hazırlığı tədbirlərini yerinə yetirməklə, torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistan silahlı qüvvələriylə üzbəüz mövqelərdə gecə-gündüz döyüş növbəsi aparır. Azərbaycan Ordusu həm sərhədlərimizi etibarlı qoruyur, həm də ölkəmizin iqtisadi, siyasi, mədəni sahələrdə qazandığı nailiyyətlərin keşiyindədir. Dövlət qayğısı ilə hərtərəfli əhatə olunan zabit və əsgərlərimiz yaxşı dərk edirlər ki, düşmən tapdağında olan ərazilərimizin azad edilməsində son söz Silahlı Qüvvələrimizin olacaq.

Bu il yanvarın 10-da Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsilə bağlı fikirlərini də bildirmiş, dövlətimizin təhlükəsizliyinin qarantı olan Silahlı Qüvvələrimizə ölkə rəhbərliyi tərəfindən göstərilən qayğıya toxunmuşdu.

Ermənistanı aciz durumda olan, gücsüz bir ölkə kimi səciyyələndirən dövlət başçısı qeyd etmişdi ki, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. "Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərib ki, biz hətta təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və öz milli maraqlarımızı müdafiə edə bilərik".

Dövlət başçısının bu mövqeyi ordu rəhbərliyinin və hər bir zabit, gizir və əsgərin üzərinə əlavə məsuliyyətlər qoyur. Vətənimizin qarşısında duran Qarabağ kimi taleyüklü problemin həllinə hazır olmaq üçün ordumuzda, hərbi hissələrimizdə hərbi intizamın, döyüş hazırlığının daha da yüksəldilməsi böyük önəm kəsb edir.

Təsadüfi deyil ki, döyüş hazırlığı planına əsasən, peşəkarlığın daha da möhkəmləndirilməsi bu il bütün qoşun növlərində müəyyən edilmiş əsas məqsəddir. Hərbi hissə və birləşmələrdə şəxsi heyətin ixtisas və taktiki ustalığını yüksəltmək, hərbi intizamı daha da möhkəmləndirmək, hərbi kollektivlərdə mənəvi-psixoloji hazırlığı, döyüş ruhunu yüksəltmək Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qoşunlarımızın qarşısına bir vəzifə kimi qoyulub.

Son vaxtlar ordumuzun fəaliyyətində əldə olunan nailiyyətlər, tədris ili ərzində əsgərlərin fərdi hazırlığından tutmuş kompleks məşğələlərə, komanda-qərargah və taktiki təlimlərə qədər olan tədbirlər bir daha göstərir ki, ordumuzun gücü-qüdrəti yetərincədir. Bir sözlə, Azərbaycan Ordusu qarşısında duran əsas vəzifəni - ölkəmizin ərazi bütövlüyünü təmin etməyə qadirdir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Döyüş hazırlığı diqqət mərkəzindədir

Düşmənlə üzbəüz mövqelərdə minaatanların öz döyüş xüsusiyyətləri vardır ki, onlar bu vərdişləri daim inkişaf etdirirlər. Əgər qarşıdakı düşmən hücum edərsə, onun qarşısını almaq üçün müdafiə olunan qoşun növləri sırasında artilleriya bölmələri xüsusi yer tutur. Zabit Aqil Şıxəliyev deyir ki, onun tabeliyində olan bölmələrin döyüş hazırlığı daim yüksək səviyyədədir. Onlar istənilən an düşmənin qarşısını ala biləcəklər. Bunun üçün yüksək bilik və bacarıqlara malik olan şəxsi heyət təhkim edilmiş mövqelərdə müşahidə aparır, sayıqlığı bir an belə əldən vermir.



Artilleriya ixtisası üzrə yetərincə təcrübəyə malik olan kapitan Bəhruz Mehdiyevin bölməsində olduq. Zabit komandiri olduğu batareyada xidməti elə qurub ki, hər bir əsgər, heyət nəfəri harda və nə ilə məşğul olsa da, "Həyəcan" komandası verildikdə dərhal silahlanaraq çıxış xəttində yerini tutur, döyüşə hazır olduğu barədə dərhal məlumat verir.

Zabit Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini artilleriya ixtisası üzrə bitirib. Hərbi xidmətə cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində başlayıb. Ötən müddət ərzində hərbi biliyi, bacarığı ilə komandirlərin rəğbətini qazanıb. Onun bu cür çalışqanlığı peşəkar artilleriyaçı kimi yetişməsinə səbəb olub. Bəhruz Mehdiyev deyir ki, hər kəs vəzifəsindən, peşəsindən asılı olmayaraq yiyələndiyi sahəni dərindən bilməlidir. Yüksək nəzəri biliklərə malik olmalı, geniş təcrübə əldə etməlidir. Hər bir zabit də yiyələndiyi peşəyə maraq göstərməlidir.

Onun tabeliyində olan heyətlərin hamısı istənilən döyüş tapşırığını lazımınca yerinə yetirmək bacarığına qadirdir. Bacarıqlı heyətlərdən söz düşəndə əsgər Cavid Musayevin komandiri olduğu heyətin də adı çəkilir. Zaqatala rayonundan olan əsgər yarım ildir müddətli hərbi xidmətdədir. Əsgərliyə gəldiyi ilk gündən artilleriya bölməsində xidmətə başlayıb. Komandirlərin öyrətdiyi bilikləri yüksək səviyyədə mənimsəyib, elə buna görə də heyət komandiri təyin olunub.

Minaatan heyətinin digər üzvləri - Kənan Ələsgərov, Elxan Manafov, Əhməd Vəliyev də döyüş tapşırığını yüksək səviyyədə icra edirlər. Burada baş tuşlayıcı K.Ələsgərovun üzərinə daha çox məsuliyyət düşür. O, döyüş atışı həyata keçirməzdən əvvəl minaatanı taraz vəziyyətə gətirir, hədəfi müəyyən etməklə onun məhv edilməsini həyata keçirir.

Əlbəttə, istənilən uğurlu döyüş əməliyyatını həyata keçirmək üçün digər heyət üzvlərindən də yetərli əmək tələb olunur. Bunsuz bölmənin yüksək döyüş hazırlığına nail olması qeyri-mümkündür. Ona görə də heyətin birgə çalışqanlığı mütləqdir.

Söhbət əsnasında məlum oldu ki, əsgər Əhməd Vəliyev qardaş Türkiyədə ali təhsil alıb. Universiteti bitirəndən sonra Vətəndə hərbi xidmət keçməyi özünə ilk vəzifə hesab edən Əhməd Vəliyevin arzusu torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə hazır olmaqdır. "Fərq etməz, bu gün xidmətdəyəm, sabah ehtiyatda, Vətənimin azadlığı naminə hər zaman silaha sarılmağa hazıram", - deyə Türkiyə universitetinin məzunu bildirir.

Bəli, hər bir əsgərin başlıca məqsədi torpaqlarımızın işğaldan azad edilməsidir. Onlar bunun üçün həmişə döyüşə hazır olduqlarını deyirlər. Ümid edirəm ki, belə vətənpərvər döyüşçülərin hazırlığı ilə torpaqlarımız tezliklə işğaldan azad ediləcək.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Düşmən son günlərdə verdiyi ağır itkilərin əvəzini dinc sakinlərdən çıxmağa çalışır

***4 sentyabr 2015-ci il.***

Ermənistan Silahlı Qüvvələrinin təxribatlarına cavab olaraq, son bir neçə gün ərzində Silahlı Qüvvələrimizin bölmələrinin bütün cəbhəboyu zonada düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə davamlı zərbələrindən ağır itkilərə məruz qalan erməni tərəfi qoşunların təmas xəttinə yaxın ərazilərdə yerləşən kəndlərimizi və dinc sakinlərimizi atəşə tutmağa başlayıb.

Cəbhədə uğursuzluğa düçar olan Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu hərəkətinin qarşısının alınması məqsədilə Silahlı Qüvvələrimiz qəti və adekvat tədbirlər görür.

Azərbaycan Silahlı Qüvvələrinin düşmənə endirəcəyi daha ağır zərbələrin gücündən ehtiyatlanan Ermənistan rəhbərliyi guya hərbi təlimlərin keçirilməsi adı altında sərhədboyu zonada yerləşən 20-dək yaşayış məntəqəsindən kənd sakinlərini təxliyə etməyə başlayıb.

Müdafiə Nazirliyi bildirir ki, kəndlərimizin və dinc sakinlərin düşmən tərəfindən atəşə tutulması dərhal dayandırılmayacağı təqdirdə Silahlı Qüvvələrimiz silahlanmada olan istənilən atəş sistemlərindən istifadə etməklə düşməni məhv edəcəkdir.

## Əsgər silahla davranış qaydalarının pozulması nəticəsində həlak olub

***4 sentyabr 2015-ci il.***

Bəzi elektron kütləvi informasiya vasitələrində atəşkəs rejiminin pozulması nəticəsində Silahlı Qüvvələrin hərbi qulluqçusu əsgər Orucov Samir Dadaş oğlunun şəhid olması barədə məlumat yayılıb.

Müdafiə Nazirliyi bildirir ki, Zərdab rayonundan hərbi xidmətə çağırılmış əsgər S.Orucov sentyabrın 3-də silahla davranış qaydalarının pozulması nəticəsində yaralanıb.

Yaralı əsgərə ilkin tibbi yardım göstərilməsinə baxmayaraq o, hərbi tibb müəssisəsinə aparılarkən yolda keçinib.

Hadisə ilə bağlı cinayət işi başlanıb, faktla əlaqədar araşdırma aparılır.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***4 sentyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 136 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Yarımca, Ağdam rayonunun Yusifcanlı, Şuraabad, Mərzili, Qaraqaşlı, Kəngərli, Novruzlu, Sarıcalı, Cəvahirli, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Əbdürrəhmanlı, Qorqan, Qaraxanbəyli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 180 atəş zərbəsi endirib.

*Vətənpərvərlik*

# Gənc nəsil mübariz ruhda yetişir

Ümummilli lider Heydər ƏLİYEV:

*Gəncliyimizin mətanətli, qüdrətli, məqsədyönlü xarakteri onların Vətən məhəbbətində, əməyə vicdanlı münasibətlərində və xalqın düşmənlərinə qarşı barışmazlığında təcəssümünü tapır!*



Hamımız yaxşı bilirik ki, vətənpərvərlik tərbiyəsi ailədən başlayır, çünki bunu bizə valideynlərimiz aşılayır. Dünyaya göz açdığımız gündən, bu torpağın havasını udduğumuz andan Vətən sevgisini qəlbimizdə hiss edirik. Yaşıdlarım kimi mənim də uşaqlıq illərim Vətənin qanlı-qadalı günlərinə təsadüf edib. Hər gün eşitdiyimiz və həm ürəklərimizi dağlayan, həm də qürur hissi duyduğumuz kəlmə "şəhid" kəlməsi olub. Atamın narahat, kədərli baxışları unudulmaz xatirə kimi yazılıb yaddaşıma. Mən hər səhər nənəmin, anamın namaz üstə Tanrıdan xalqımızın, millətimizin üstündən qara buludların dağılmasını, torpaqlarımızın düşmən işğalından azad olmasını dilədiyini eşitmişəm. Məktəbə ilk qədəm qoyduğum gündən Dövlət himnimizi sinif yoldaşlarımızla eyni sırada oxuduqda qəlbimin ən dərinliklərində vətənpərvərlik duyğuları baş qaldırıb. Sonra həmin sevgi və qürur hissi ilə Cavanşiri, Babəki, Koroğlunu... öyrənmişik.

Tarix boyu Azərbaycan xalqı igid, qəhrəman oğullar yetirib. Cavanşirin, Babəkin, Qara Yusifin, Uzun Həsənin, Şah İsmayılın, Təhmasibin, Cavad xanın timsalında böyük fəxr hissi duyduğumuz Vətən oğulları xalqımızın tarixində silinməz izlər qoyublar. Zaman-zaman onların yerini Həzi Aslanov, Hüseynbala Əliyev, Mehdi Hüseynzadə, İsrafil Məmmədov, Əlif Hacıyev, Yusif Mirzəyev, Mətləb Quliyev, Koroğlu Rəhimov, Mübariz İbrahimov kimi Vətən oğulları tutub və bu gün də o qəhrəmanların ardıcılları yetişməkdədir.

Bilirik ki, hərbi vətənpərvərlik hissləri tarixin sınaqlarından keçərək yaddaşımıza hopan ülvi duyğulardır. Azadlığımızı və müstəqilliyimizi asan yolla qazanmamışıq, onun uğrunda qan tökmüşük. Məhz buna görə də düşmənə nifrət duyur, hər qarış torpağımızı göz bəbəyi kimi qoruyuruq. Həmişə Babəkin bir fikri ilə öyünmüşəm. "40 il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır".

Hazırda ulu öndərin uğurlu siyasətini davam və inkişaf etdirən Prezident İlham Əliyevin bir dövlət başçısı kimi Azərbaycanın milli-mənəvi dəyərlər fonunda güclənərək, dünya dövlətləri sırasında layiqli mövqe tutmasında əvəzsiz xidmətlərindən sevinc və fəxr hissi duyuruq. Onun ordu quruculuğunda, əsgər və zabitlərin həyat şəraitinin və sosial vəziyyətlərinin yaxşılaşdırılması sahəsində gördüyü işlər danılmazdır. Bu diqqət və qayğının nəticəsidir ki, ali hərbi məktəblərimizə daxil olan gənclərin sayı ilbəil artmaqdadır. Dövlət başçımızın Mübariz İbrahimov haqqında dedikləri ordunun şəxsi heyəti arasında mənəvi-psixoloji ruh yüksəkliyi yaradır. "Qoy düşmənlər bilsin ki, Azərbaycan xalqının tarixində Mübariz kimi qəhrəmanlar olub və yenə də olacaqdır. Bu gün bizim ordumuzda Mübariz İbrahimov kimi qəhrəmanlıq göstərməyə qadir olan oğullar yüzlərlə, minlərlədir".

Mübariz İbrahimovun igidliyindən təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında da fəxr hissi ilə danışılır. Yadımdadır, Türkiyədə bir gəmiyə Mübariz İbrahimovun adı verilmişdi. Açılış mərasimində Milli Qəhrəmanın valideynləri də iştirak etmişdilər.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da orduya olan xüsusi diqqət və qayğısı cəmiyyətimizdə rəğbətlə qarşılanır. Müdafiə naziri müntəzəm olaraq cəbhəboyu hərbi hissələrdə olur, əsgərlərin qayğısına qalır, onlarla yaxından maraqlanır, "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənası olmalıdır" deyərək bütün hərbçiləri daha yaxşı xidmət etməyə ruhlandırır. Bütün bunlar gənc nəslin mübariz ruhda formalaşmasında əvəzsiz rol oynayır.

Təbii ki, gənclərimizin vətənpərvərlik tərbiyəsində mətbuatın da rolu danılmazdır. "Marş", "Salam, əsgər", "Azərbaycan Respublikasına xidmət edirəm" kimi verilişlər gənclərimiz tərəfindən maraqla qarşılanır və öz yaşıdları arasında böyük həvəslə, qürur hissi ilə bölüşdüyü mövzuya çevrilir. Düşünürəm ki, belə verilişlərin axşam saatlarında təşkil olunması daha məqsədəuyğun olardı.

Məktəblərdə çağırışaqədərki hərbi hazırlıq fənnini tədris edən müəllimlərin xidmət yolu keçmiş, hərbi texnikaların istismar xüsusiyyətlərini bilən ehtiyatda olan zabitlərdən seçilməsini alqışlayırıq. Müasir şagirdlər çox həssasdırlar, bu səbəbdən də bu fənni tədris edən müəllimin çox məlumatlı olması vacibdir. Bilikli, savadlı müəllimin şagirddə yaratdığı maraq heç zaman hədər getməz. Onun aşıladığı biliklər, Vətənlə, torpaqla bağlı ifadələr, gənc nəslin şüurunun formalaşmasına birbaşa təsir edir. Məktəblilər arasında keçirilən "Şahin", "Cəsurlar" kimi hərbi idman oyunlarının da şagirdlərin hərbi bilikləri həvəslə mənimsəmələri üçün zəmin yaratdığı danılmazdır.

Sonda qeyd etməyi özümə borc bilirəm ki, gənc nəslin vətənpərvərlik tərbiyəsinə cəmiyyətdə öz töhfəsini verənlər və bu vacib sahədə əlindən gələni əsirgəməyənlər əsl vətəndaşdır.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*



# Etimadı doğruldan gizir

***Səngər boyu yol yoldaşım zabit Eldəniz Gözəlov söhbətində bildirir ki, hərbi hissənin şəxsi heyəti, bir qayda olaraq, üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir. Erməni qəsbkarları atəşkəs rejimini pozmağa cəhd göstərəndə, yurdumuzun keşiyində ayıq-sayıq dayanan döyüşçü oğullar onların qarşısını qətiyyətlə alırlar.***

Xidmətdə fərqlənən hərbçilərdən biri də gizir Süleyman Allahverdiyevdir. Komandirləri onun xidmətindən həmişə razılıq edir, ona etimad göstərir. Gizir nümunəvi xidməti ilə bu etimadı doğrultmağa çalışır.

Səngər boyu xeyli irəli gedib onun qoruduğu mövqelərə çatırıq.

Gizir Süleyman Allahverdiyevin üz-gözündən cəsarət və hünər yağır. Tanışlıq zamanı öyrənirəm ki, Süleyman xeyli müddətdir ordu sıralarındadır. Əsgəri xidmətini başa vurduqdan sonra ürəyində baş qaldıran arzusunun işığı ilə ordu sıralarında qalmağı qərarlaşdırıb. Hərbi biliklərini daha da artırmaq üçün 2010-2011-ci illərdə Gizirlər məktəbində oxuyub. Silahların, hərbi texnikanın sirlərini öyrənib, təlimlərdə müasir döyüş vərdişlərinə yiyələnib. Hərbi təhsilini başa vurandan sonra cəbhə bölgəsində yerləşən bu hərbi hissədə xidmətə başlayıb.

- Vətən torpaqlarının keşiyində dayanmaqdan qürur duyuram, - deyir gizir Süleyman Allahverdiyev. - Gecə-gündüz yurdumuzu qoruyuruq. Düşmənə bir addım da irəliləməyə imkan vermirik. Torpaqlarımızın hər qarışı bizim üçün doğma və əzizdir. Ordumuzun qüdrəti günü-gündən güclənir. Müntəzəm olaraq keçirilən təlimlərdə peşəkarlığımızı daha da artırırıq. Erməni qəsbkarları hər addımda gücümüzü, qüdrətimizi hiss edir.

Gizir Süleyman Allahverdiyevlə və başqa əsgərlərlə sağollaşıb ayrılırıq. Onlar yurdumuzun keşiyini çəkməkdə davam edəcək. Qələbə ruhlu oğulların baxışları düşmən mövqelərinə dikilib. Düşməni yalnız məğlubiyyət gözləyir.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Ürəkdən, ruhdan gələn sevgi



"N" hərbi hissəsində olarkən gənc əsgərlərin sıra hazırlığı ilə məşğul olduğunun şahidi oluruq. Sıranın qarşısında 2014-cü ildən zabit kimi ordu sıralarında xidmət edən leytenant Ziya Quliyev idi. O, əsgərlərə sıra hazırlığını, düzgün addımlamağı həvəslə başa salırdı. Çalışmaları özü də əsgərlərlə birgə icra edirdi.

Gənc zabitlə söhbət etmək imkanı qazanırıq. Əslən Naxçıvan Respublikasından olan zabit erkən yaşlarından hərbçi olmaq arzusunda olduğunu, illər keçdikcə bu arzu uğrunda mübarizə apardığını və məqsədinə çatdığını bildirir:

- Zabit olmaq, Vətənini, torpağını qorumaq Azərbaycanı sevən hər birimizin borcudur. Vətən sevgisi ürəkdən, ruhdan gəlir. Orduda xidmət edən hər kəs daşıdığı formanın mənəvi dəyərini yüksək qiymətləndirir.

Sonra sıra hazırlığı ilə məşğul olan əsgərlərlə söhbət edirik. İlk həmsöhbətim Samux rayonundan hərbi xidmətə çağırılan əsgər Vəli İbrahimov olur. İdmançı görünüşlü gənc əsgərlə söhbətimiz zamanı cüdo ilə məşğul olduğunu öyrənirik. "Hərbi xidmətdən razısanmı?" sualıma əminliklə "Razıyam" deyib yaradılan şəraitdən, müasir standartlara cavab verən əsgər yataqxanalarından, anasının bişirdiklərindən heç də fərqlənməyən yeməklərdən ağız dolusu danışır.

Gənc əsgər Oruc Musayev də yaradılan şəraitdən, göstərilən diqqət və qayğıdan söz açaraq bildirir ki, ilk günlər sıra hazırlığında çətinlik çəkir, düzgün addımlaya bilmirdik. Zabit və gizirlərimizin əməyi nəticəsində artıq nizamnamənin tələblərinə uyğun addımlamağı, silahla davranmağı öyrənmişik.

Gənc əsgərlərin sıra hazırlığı məşğələsini izlədikcə əmin olursan ki, bu sıralarda dayanan hər bir gənc sabahın təcrübəli döyüşçüsü olmağa hazırdır.

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Əsgəri xidmət – Vətən borcu

***Vətənə xidmət hər bir gəncin borcudur. Bu sözləri "N" hərbi hissəsində olarkən gənc əsgərlərdən eşitdim. Asudə vaxtlarını ideoloji otaqda hərbi jurnallar, qəzet və kitablar oxumaqla keçirən bir qrup gənc əsgərə yaxınlaşdıq. İlk həmsöhbətim hərbi xidmətə Göyçay rayonundan çağırılan Cavid Rəhimov oldu. Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu olan əsgərimiz ölkəmizin bütün sahələrində olduğu kimi, ordumuzda da gedən inkişafın göz qabağında olduğunu vurğuladı.***

- Hərbi qulluqçularımız üçün müasir şəraitin təşkil olunduğunu, yeni yataqxanaların, yeməkxanaların yaradıldığını hələ tələbə vaxtlarımda eşidirdim. Xidmətə gələndə təsəvvür etdiyimdən də yaxşı şəraitlə qarşılaşdım. Burada güclü nizam-intizamla yanaşı, səmimi ailə mühiti var. Zabitlərimiz bizimlə komandir kimi deyil, böyük qardaş kimi rəftar edirlər. Asudə vaxtlarımızda onların vətənpərvərlik ruhunda söhbətlərini dinləyirik. Çətinliklərimizin olub-olmaması haqqında vaxtaşırı maraqlanırlar. Onların bizə bu diqqəti, qayğıkeş və səmimi münasibəti xidmətə sevgimizi artırır və əhval-ruhiyyəmizi daim yüksəldir, - deyə Cavid bildirdi.

Fikirlərini bölüşmək üçün daha bir əsgər - hərbi xidmətə Tovuz rayonundan çağırılan Fəxrəddin Quliyev söhbətə qoşuldu:

- Azərbaycan Dövlət Texniki Universitetinin məzunuyam. Bütün gənclərimiz kimi mən də Vətənimizə, doğma ordumuza rəğbət və sevgi bəsləyirəm. Torpaqlarımızın bütövlüyü uğrunda tökülən qanlar, verilən canlar Vətənə olan sevgimi, bağlılığımı daha da artırır. Bizim nəslimizdə də Vətən uğrunda canından, qanından keçənlər var. Qarabağ uğrunda gedən döyüşlərdə iki əmim şəhid, atam isə əlil olub. Şəhid ailəsi olaraq biz vətənpərvərlik hisslərinə dərindən bağlıyıq.





Atam mütəmadi olaraq əmilərimdən, döyüşçü yoldaşlarından danışır, Azərbaycan oğlunun qorxmaz olduğunu bildirir. Mən də şəhidlərimizin intiqamını alıb torpaqlarımızı düşmən tapdağından azad etməyə hər an hazıram.

- Mən, əsgər İlkin Hüseynov hərbi xidmətə Kəpəz rayonundan çağırılmışam - deyir başqa bir gənc. - Hərbi xidmətin ən çox sevdiyim cəhətlərindən biri günün nizam qaydasıdır. Mülki həyatda olarkən nə vaxtında qidalanırdıq, nə yatıb-dururduq, nə də ki, idmanla gündəlik məşğul olurduq. Bir sözlə, heç də sağlam həyat tərzi keçirmirdik. Amma hərbi hissəyə gələndən günün nizam qaydasına uyğun olaraq vaxtlı-vaxtında yatmaq, qidalanmaq və idmanla gündəlik məşğul olmaq əsas vərdişlərimizə çevrilib. Hər gün daha da gümrahlaşdığını hiss edirsən. İndi daha güclü və sağlamam. Belə sağlam ruhla xidmət edir, hərbi biliklərə dərindən yiyələnirəm. Vəzifə borclarımı, silahımın sirlərini mükəmməl öyrənirəm. Hər an ön cəbhədəki əsgər yoldaşlarımla çiyin-çiyinə postda dayanmağa, Vətən qarşısında borcumu yerinə yetirməyə hazıram.

Növbəti həmsöhbətim Azərbaycan Dillər Universitetinin məzunu əsgər Rəşad Adaşlı oldu:

- Hərbi xidmətə hələ təzə başlamışam. Lakin qısa zamanda çətinlik çəkmədən buradakı mühitə uyğunlaşdım. Çünki burada əsgərlərə yüksək diqqət, qayğı və səmimi münasibət göstərilir. Yataqxanalarda və yeməkxanalarda gigiyenik cəhətdən təmizliyə ciddi nəzarət olunur. Hərbi hissələrdə bu cür şəraitin yaradılmasına, yüksək diqqət və qayğı göstərilməsinə görə, Ali Baş Komandan İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin təşəkkürümü bildirirəm.

Fikirlərini bölüşmək üçün hərbi xidmətə Saatlı rayonundan çağırılan Şirin Qasımov söhbətə başladı:

- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində günü-gündən güclənən və inkişaf edən ordumuz var. Bu inkişafı mətbuatdan, televiziya və internetdən mütəmadi izləyirdim. Hal-hazırda hərbi xidmətdəyəm və bu inkişafı, uğurları hiss edirəm. Azərbaycan əsgəri olmaqdan şərəf duyuram. Bütün əsgərlərimizi komandirlərimizin əmr və tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirib intizamlı olmağa səsləyirəm.

Hərbi xidmətə Gəncə şəhərindən çağırılan əsgər Murad Novruzov da fikirlərini bölüşdü:

- Əsgər yoldaşlarımın sözlərinə qoşularaq hərbi hissədə yaradılan gözəl şəraiti bir daha vurğulayıram. Hərbi hissəyə gəldiyim ilk gündən burada özümü ailəmdəki kimi hiss edirəm. Bir sözlə, hərbi hissə bizim ailəmiz kimidir və komadirlərimiz də valideynlərimiz kimi bizim qayğımıza qalır. Azərbaycan əsgəri olmaq şərəfdir və daim bu şərəfi doğrultmağa çalışacağam.

**Mahmud MÖHBALIYEV,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### İkinci Dünya müharibəsinin başa çatmasının 70 illiyi qeyd edilir



II Dünya müharibəsinin sona çatmasının 70 illiyi qeyd edilir. 1945-ci il sentyabrın 2-də Amerikanın "Missuri" linkorunun göyərtəsində Yaponiyanın qeyri-şərtsiz təslim olması barədə akt imzalanıb.

AZƏRTAC Rusiyanın NTV telekanalına istinadən xəbər verir ki, II Dünya müharibəsinin sona çatdığı bu günü artıq Uzaq Şərqdə təntənəli mitinq və yürüşlə qeyd edirlər. Petropavlovsk-Kamçatski şəhərinin baş meydanında hərbçilərin parad heyətinin keçidi olub.

Döyüşlərdən sağ qayıtmayan əsgərlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Paradda "Ölümsüz polk"un keçidi də diqqəti cəlb edib. Təntənəli mərasimlər, həmçinin, sovet ordusunun əsgərlərinə ithaf olunmuş abidənin qoyulduğu "Azadlıq meydanı"nda da keçirilib.

### Yer kürəsində 3 trilyon ağac bitir



Alimlərin bildirdiyinə görə, Yer kürəsində təxminən 3 trilyon ağac bitir, 15 milyardı isə hər il kəsilir. Bu barədə Trend TASS agentliyinə istinadən xəbər verir.

"Biz meşə sıxlığınının dünya xəritəsini hazırlamışıq. Bu xəritə göstərir ki, Yer kürəsində 3,04 trilyon ağac var. Bu göstərici əvvəlkilərdən daha çoxdur", - alimlər deyib.

Bundan əvvəl peykdən çəkilən şəkillərə əsasən 400 milyard ağac olduğu hesab olunurdu. Lakin alimlərin Amazon çayı ətrafında mindən çox sahədə apardığı hesablamalara görə, yalnız o rayonda 390 milyard ağac olduğu öyrənilib. Buna görə də, Yer kürəsinin ağac sayını yenidən müəyyənləşdirmək qərarı verilib.

### Hindistanda ümummilli tətilə 150 milyondan çox insan qoşulub



Hindistanın bütün ərazisində keçirilən bir günlük ümummilli tətildə azı 150 milyon insan iştirak edib. Bu barədə ölkənin ən böyük 10 həmkarlar ittifaqının keçirdiyi aksiyanın təşkilat komitəsindən bildiriblər.

AZƏRTAC TASS informasiya agentliyinə istinadən xəbər verir ki, aksiyaya bank sahəsinin, sənaye, tikinti, dağ-mədən və kənd təsərrüfatı sektorunun işçiləri qatılıb. Əməkdaşların gündəlik vəzifələrinin icrasından imtina etməsi bank sektorunun iflicinə gətirib çıxarıb, tikinti işləri və şəhər nəqliyyatının fəaliyyəti dayanıb, mağazaların çoxu bağlanıb.

Kütləvi etirazlara əmək barədə əsas qanunlara riayət etməyi və tariflərə yenidən baxmağı tələb edən həmkarlar ittifaqlarının hökumətlə apardığı danışıqlarının nəticəsiz qalması səbəb olub. Təşkilatçılar hökumətin 12 bənddən ibarət tələblər paketinə müsbət münasibət bildirməyəcəyi təqdirdə müddətsiz tətillərə başlayacaqlarını bildiriblər. Tələblərə, həmçinin, qiymətlərin və işsizliyin artmasını dayandırmaq, iş şəraitini yaxşılaşdırmaq, minimum əməkhaqlarının ayda 15 min rupiyə (230 dollar) qaldırmaq və pensiyaları artırmaq da daxildir.

### "Domodedovo"da uçuşlar ləngiyir, aeroport yolunda uzun tıxaclar yaranıb



Moskvanın "Domodedovo" hava limanında baş verən yanğın 60-dək reysin gecikməsinə səbəb olub.

AZƏRTAC Rusiyanın NTV telekanalına istinadən xəbər verir ki, reyslər orta hesabla 90 dəqiqə gecikmə ilə yola salınır. Hava limanının giriş qapıları qarşısında basabas, aeroport yolunda isə uzunluğu üç kilometrə çatan tıxaclar yaranıb.

Fövqəladə Hallar Nazirliyinin Moskva şəhər idarəsindən verilən məlumata görə, cədvəl üzrə uçuşlar üç saat ərzində bərpa olunacaq. Hazırda aeroportda 100 mindən çox insan toplaşıb. Hadisənin aeroportun baqaj bölməsində kabellərin alışması nəticəsində baş verdiyi bildirilir.

### Malidə qayığın batması nəticəsində 18 nəfər həyatını itirib



Malidə Niger çayında qayığın batması nəticəsində azı 18 nəfər həyatını itirib. Bu barədə Trend RİA Novosti agentliyinə istinadən xəbər verir.

Qeyd olunur ki, itkin düşənlər də var. 70 nəfər xilas oluna bilib.

İlkin ehtimallara görə, hadisənin səbəbi həddindən artıq yüklənmədir.

### Türkiyənin Haqqari bölgəsində iyirmi PKK terrorçusu məhv edilib



Türkiyə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri ölkənin Haqqari bölgəsində yerləşən Kürd Fəhlə Partiyasının (PKK) düşərgələrini bombalayıb.

Anadolu Agentliyinin məlumatına görə, nəticədə 20 terrorçu məhv edilib. Bölgədə terrorçuların yerləşdiyi ehtimal olunan bəzi rayonlarda fövqəladə vəziyyət elan olunub. Terrorçuların daha çox hücum etdikləri Şemdinli-Tekeli yolunda təhlükəsizlik tədbirləri gücləndirilib.

Ən son məlumata görə, sentyabrın 2-də PKK terrorçularının Şemdinli-Tekeli yoluna hücumu nəticəsində bir əsgər şəhid olub.

### Planetlərdən birinə "Tacikistan" adı verildi



Günəş sisteminin ən kiçik planetlərindən birinə "Tacikistan" adı verilib. Bu barədə Trend TASS agentliyinə istinadən məlumat verir.

Müvafiq qərar Tacikistan alimlərinin göy cisimlərinin öyrənilməsinə verdiyi töhfəyə görə Beynəlxalq Astrofiziklər Cəmiyyəti tərəfindən qəbul edilib.

Tacik alimlər bildiriblər ki, ən kiçik planet olan "Tacikistan" Mars və Yupiter planetləri arasında Yerdən 250, Günəşdən 463 milyon kilometr uzaqlıqda yerləşir. Planetin Günəş ətrafında dövretmə tezliyi 5 ildə 1 dəfədir.

**Hazırladı:
Mahmud MÖHBALIYEV**

# Əlahiddə Ümumqoşun Orduda "Hərbi beşnövçülük" birinciliyi keçirilib



**_Əlahiddə Ümumqoşun Orduda mütəmadi olaraq "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan kütləvi idman tədbirlərindən biri də hərbi qulluqçular arasında keçirilən "Hərbi beşnövçülük" birinciliyi olub._**

Əvvəlcə hərbi qulluqçuların birinciliyə hazırlığı barədə məruzə edilib. Sonra Əlahiddə Ümumqoşun Ordunun Fiziki Hazırlıq və İdman rəisi mayor Vahid Məmmədov birinciliyin məqsəd və şərtlərini şəxsi heyətin nəzərinə çatdıraraq iştirakçılara uğurlar arzulayıb. Bildirilib ki, yarışda məqsəd hərbi qulluqçuların dözümlülüyünün, atıcı silahlardan atəş açma bacarığının, əl qumbaralarının atılması vərdişlərini təkmilləşdirmək üzrə güclü idmançıların və komandaların müəyyən olunmasıdır.

Yarışın məqsədi və qaydaları iştirakçıların diqqətinə çatdırıldıqdan sonra birinciliyə start verilib. 15 komandanı təmsil edən hərbi qulluqçular maneələr zolağının dəf edilməsi, qumbaraatma, maneələrlə üzmə, atış və kross qaçışı növləri üzrə güclərini sınayıblar.

Qalib komandalar müəyyən edilib mükafatlandırıldıqdan sonra fərdi hesabda, yarışın adından da göründüyü kimi, 5 növ üzrə qələbə qazanan hərbi qulluqçular da mükafatlandırılıblar.

"Hərbi beşnövçülük" birinciliyində qaliblər aşağıdakı kimi müəyyən edilib:

**Maneələr zolağını dəf etmə üzrə:**

1-ci yer - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Hüseyn Hüseynquluyev;

2-ci yer - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Sərxan Hüseynov;

3-cü yer - gizir Zahir Feyzullayev.

**Uzaqlığa və dəqiqliyə qumbaraatma üzrə:**

1-ci yer - gizir Zahir Feyzullayev;

2-ci yer - gizir Teymur Qənbərov;

3-cü yer - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əzəmət Qənbərov.

**50 metr məsafəyə üzgüçülük üzrə:**

1-ci yer - baş leytenant Babək Ağayev;

2-ci yer - gizir Vəfa Əliyev;

3-cü yer - leytenant Pərviz Mösümzadə.

**200 metr məsafəyə avtomatdan atış üzrə:**

1-ci yer - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elşən Məmmədov;

2-ci yer - gizir Teymur Qənbərov;

3-cü yer - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əzəmət Qənbərov.

**8 kilometr məsafəyə kross qaçışı üzrə:**

1-ci yer - əsgər Elçin Mirzəyev;

2-ci yer - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Sərxan Hüseynov;

3-cü yer - gizir Röyal Ocaqlı.





Qaliblər Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırıldıqdan sonra birinciliyin iştirakçılarından yarışla bağlı öz təəssüratlarını bölüşənlər də olub. Baş leytenant Babək Ağayev, gizir Zahir Feyzullayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əzəmət Qənbərov və başqaları birinciliyin gərgin mübarizə şəraitində şəffaf keçdiyini də vurğulayıblar.

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan kütləvi idman tədbirlərinin nəticəsidir ki, hərbi qulluqçular arasında idmana maraq daha da güclənir.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

_1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:_

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### Futbol üzrə Azərbaycan və Xorvatiya millilərinin qarşılaşmasında hesab açılmayıb



Futbol üzrə 2016-cı ildə keçiriləcək Avropa çempionatının seçmə mərhələsi çərçivəsində sentyabrın 3-də Azərbaycan milli komandası ilk oyunda Xorvatiya millisi ilə qarşılaşıb. Görüşdə hesab açılmayıb və Azərbaycan millisi beşinci xalını aktivinə yazdırıb.

"H" qrupunda yer alan komandamız sayca 7-ci olan bu görüşdən sonra xallarının sayını 5-ə çatdırıb. Qrupun lideri olan Xorvatiya millisi isə 15-ci xalını aktivinə yazdırıb. Qrupun digər oyunlarında İtaliya yığması Malta komandasını, Bolqarıstan millisi isə Norveç kollektivini qəbul edəcək.

### Hakimlərimizə beynəlxalq təyinat

FIFA referisi Orxan Məmmədov və FIFA referi köməkçisi Yaşar Abbasov yeni beynəlxalq təyinat alıblar.

AFFA-dan bildiriblər ki, hakimlərimiz 17 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının ilkin seçmə mərhələsinin 5-ci qrupunda keçiriləcək oyunlarda iştirak edəcəklər. Avstriya, Serbiya, Litva və Lüksemburq komandalarının yer aldığı bu qrupun oyunları oktyabrın 23-dən 30-dək Lüksemburqda keçiriləcək.

### Azərbaycan boksçuları dünya birinciliyində iştirak etmək üçün Sankt-Peterburqa yola düşüblər

Sentyabrın 4-də Sankt-Peterburqda boks üzrə yeniyetmələr arasında dünya birinciliyi start götürüb. Səkkiz gün davam edəcək yarışda dörd yüzdən çox idmançı mübarizə aparacaq. Komandamız yarışda yalnız bir çəki dərəcəsində təmsil olunmayacaq. Digər 12 çəkidə Azərbaycan boksçuları bacarıqlarını nümayiş etdirəcəklər.

Boks üzrə milli komandamız baş məşqçi Rasim Məmmədov, məşqçilər Elbrus Rzayev, Təvəkkül Məmmədov və Hüseyn Bağırovun rəhbərliyi ilə Sankt-Peterburqa yollanıb. Heyətdə ötən il yeniyetmələr arasında qitə birinciliyinin qalibləri olmuş Bəxtiyar Qazıbəyov (60 kq) və Məhəmməd Abdullayev (80 kq) də yer alıb. Avropa birinciliyinin gümüş mükafatçısı Cavid Hüseynov (48 kq), bürünc medalçılar Orxan Həsənov (54 kq) və Şaiq Məlikov (70 kq) da əsas medal ümidlərimizdir. Bundan başqa, Kənan Əliyev (46 kq), Seyidrza Sadıqov (50 kq), Hüseyn Sadıqov (52 kq), Elton Məmmədov (57 kq), Sayad Lalayev (63 kq), Rəcəb Niftəliyev (66 kq) və Elbrus Əkbərov (75 kq) da komandamızın heyətinə cəlb olunublar.

Dünya birinciliyində ölkəmizi hakim kimi Rövşən Hüseynov təmsil edəcək.

### Azərbaycanın güləş yığmaları Las-Veqasda ilk məşqə çıxıb



Sərbəst, yunan-Roma və qadın güləşi üzrə Azərbaycan yığma komandaları sentyabrın 7-də başlayacaq dünya çempionatında iştirak etmək üçün artıq ABŞ-ın Las-Veqas şəhərindədir.

Avqustun 31-də Bakıdan Las-Veqasa yola düşən komandalarımız məşqə çıxıb. Çempionatın proqramına əsasən, əvvəlcə 66, 75 və 98 kiloqram çəki dərəcələrində yunan-Roma güləşçiləri mübarizəyə başlayacaqlar.

**AZƏRTAC-ın materialları əsasında**

---

Kursant Kərimov Toğrul Raqib oğluna 2014-cü ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Əsgər İsayev Böyükağa Mehman oğluna 2015-ci ildə verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

---

*Yeni kitablar*

# "Kəsilməyən atəş səsləri"

**_"Müharibə nə vaxt qurtaracaq?" kitabımda (Bakı, 1993) yazmışdım: "Müharibə qan-qadadı, ölüm-itimdi, qaçqınlıqdı, sönən ocaqdı, keçən çıraqdı...". Bunları 25 ildi yaşayırıq. Atəş səsləri 25 ildi kəsilmir. Atəşkəs olsa da eşidilir, beynəlxalq təşkilatların vasitəçiliyi ilə aparılan danışıqlar hələ ki, nəticəsiz qalır. Ədəbiyyat, təbii ki, müharibə mövzusuna biganə qala bilməz._**




Tarixləşdirmə öz yerində, müharibədə yaranan əsərlərin aşıladığı fikirlər daha kəsərli olur. Vahid Məhərrəmovun "Kəsilməyən atəş səsləri" kitabını bu tezisin işığında oxudum. Mənə də tanış mövzular, təbii ki, könlümə yatdı və bu mövzuların kövrəkliyini də, ağrı-acılarını da oxuya-oxuya yaşadım. Cəmiyyətin inkişafına pərsəng olan bu səsləri hamımız eşidirik; hərə öz duyumu səviyyəsində eşidir. Vahid Məhərrəmov həm də yazıçı fəhmiylə eşidir, duyduqlarını (şahidi olduqları öz yerində) nəsrləşdirir. Hər əsərdə heysiyyət çırpınır, hər əsərdən təəssüf dikəlir. Müşahidələr, fakt və hadisələr əsasında yazılan hekayələr bir həqiqətin təsdiqi kimi alınmalıdır: müharibə təkcə qan-qada, ölüm-itim deyil, müharibə həm də torpaqsevərliyin sınağıdı; Vahid Məhərrəmov bu sınağa sinə gərənlərin yazıçısıdı.

"Əsgər kəməri", "İkinci atəş", "Yaralanmış ömür", "Kəsilməyən atəş səsləri". Hər biri müharibənin bir görüntüsü - ədəbi təqdimidi. Yaşanılmış anlar ədəbi formatda tarixşləşdirilib. Müəllif bu anları yaşaya-yaşaya yazıb, yaza-yaza yenidən yaşayıb.

"Əsgər kəməri"ndə kövrək bir məqam var. Müharibə yaşa, sosial mövqeyə baxmır. Davudun bacısının duyumlu ürəyini Vətənin istəyinə tən bilmək günah olmazdı. Qardaşının qisasını almaq istəyən Gülnarın qətiyyəti, Vətən sevgisi fərdiliklə məhdudlaşmır. Vahid Məhərrəmov Gülnarın istəyini (amalını) ümumiləşdirə bilib. Yeri gəlmişkən, hekayəni oxuduqca düşünürsən: kəmər təkcə əşya deyilmiş, kəmər qırılan və yaşayan ömürlər arasında əlaqə vasitəsiymiş. Belə olmasaydı, Gülnar şəhid qardaşının kəmərinə bu qədər bağlanmazdı; mənən, ruhən bağlı olanların bir-birindən üzülməsinə imkan verməyən kəmər (əsgər kəməri) bir həqiqətin təsdiqi üçün seçilən ədəbi priyomdur: maddiləşmiş yadigar mənəvi yadigarların (əmanətlərin) qorunmasında vasitə olmalıdır. Nə üçün, nəyin naminə vuruşduğunu bilənlər əmanət üçün can əsirgəməz. Diqqətli oxucu müəllifin bədii təhkiyyəsini dərk edir, duyur, düşünür. Düşündürməyə qadir olan əsər, təbii ki, dəyərlidir.

"Kəsilməyən atəş səsləri" istər ayrıca hekayə kimi, istərsə də bədii fikir kimi diqqəti çəkir. Müharibənin nə olduğunu bu hekayədə aydınlığıyla görmək mümkündür. Bədii əsərin dəyəri də məhz göstərməkdir, göstərilənin mahiyyətinin dərkinə istiqamətləndirməkdir. Vahid Məhərrəmov buna nail olub...

"Yazılmamış gündəlik" bölməsində verilən "Əsirlikdən xilas etdiyim kitablar" sənədli hekayəsi diqqəti təkcə məzmun etibarilə çəkmir, həm də maarifləndirmə çaları ilə seçilir. Bu, kitaba sevgiylə məhdudlaşmayan istək olub, şübhəsiz. Yaradılana (kitaba) can yandırmaq olanı qorumaq anlamıyla eyniləşdiyindən Vahid Məhərrəmovun bu hekayəsini sənədli nəsrdə "boyu görünən" hekayə adlandırardım...

Ümumiyyətlə, "Kəsilməyən atəş səsləri" kitabını düşüncələrimin üstündə əsən bədii meh bildim...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

---

*Publisistik düşüncələr*

# Sevgin olacaqdır Füzuli boyda...

**_Bu günlərdə oxuduğum bir yazı - Fəridə Rəhimlinin "Dərdim Füzuli boyda..." məqaləsi ("Ədalət" qəzeti, 22 avqust, 2015-ci il) məni varımdan yox elədi._**

Füzuli boyda dərd təkcə Fəridə Rəhimlinin dərdi deyil, hamımızın dərdidi. İşğal olunmuş digər ərazilərimiz kimi Füzulisizlik də 22 ildi gündüzlər gözlərimizin nurunun pərsəngidi, ürəyimizin sıxıntı yükü, gecələr yuxularımızın ortağıdı...

...1992-ci ilin fevralında Füzulidəydim. Ezamiyyətdə. Onda Füzulidə də döyüşlər gedirdi, Füzulidə də düşmənin hücumları dəf edilirdi. Qacar kəndində camaatın da əsgərləşdiyini, Topçu kişinin - Novruz Əliyevin timsalında kəndin müharibənin qanunlarıyla yaşadığını görmüşdüm. Şahmurad kişinin sözlərini unuda bilmərəm: "Torpaq bizə babalarımızdan, ev-eşiyimiz atalarımızdan əmanətdi. Son nəfəsimizəcən döyüşəcəyik. Ölsək də torpaq qazanacaq, sağ qalsaq da...". Şahmurad kişinin dodağını külə döndərən ölüm ifadəsini şəhidlik kimi anlamışdım. Yəni Füzulidə belə bir vaxtda kişinin ölümü şəhidlik olmalıdı...

Rayon hərbi komissarının müavini mayor Rasim İbrahimovun dediklərini xatırlayıram: "Hərə bir cana borcludu. Bu borc da Vətənə görə ödənilməlidi. Yəni son nəfəsimizi də Vətən naminə almalıyıq. Yoxsa yaşadığımız illər-aylar bizə haramdı...". Dörd ay sonra Rasim İbrahimov şəhid oldu. İndi Azərbaycanın Milli Qəhrəmanı kimi bəlkə də hər gün anırıq. Onu (onları) siz də unutmursunuz, Fəridə xanım, unuda bilməyəcəksiniz. Füzuli sevgisi belə oğulları yaşamımızın ortağı eləyib...

Məqaləni Füzuliyə sevgi kimi oxudum. Ancaq bir-iki məqam düşüncələrimi üyüşdürdü:

"Bu yük (Füzulinin işğaldan azad edilməsi nəzərdə tutulur - R.F.) bizdən ötüb balalarımızın boynuna düşəcək" fikri qəlbimi qana döndərdi. Bu fikrin bir yozumu da yaxa qırağa çəkmə olduğu üçün. Yox, bu yükü biz çəkəcəyik. Əli silah tutan balalarımızla bərabər. Füzulinin də, Şuşanın da, Laçının da, Kəlbəcərin də, Ağdamın da, Cəbrayılın da, Qubadlının da, Zəngilanın da işğal yükünü min illərlə səsləşən tariximizə pərsəng (yük) eləməyəcəyik, Fəridə xanım. Ayaq tutursa, ürəkdə təpər varsa, ruhsuz bədən deyiliksə, oğullarımızın səngərdaşı olacağıq. Oğullar işğal olunmuş ərazilərimizdə dalğalandıracaq bayraqlarımızı, biz onları bayraq əvəzi başımız üstünə qaldıracağıq...

Bir əsgərdən orta məktəbi harada bitirdiyini öyrənmək niyyətiylə haralı olduğunu soruşdum, "Kəlbəcərdənəm" dedi. Səsində kövrək bir titrəyiş vardı. Həmin əsgər Kəlbəcəri görməyib. Ancaq "Görmədiyim Kəlbəcərdən bircə udum hava istəyirəm" kəlmələrini "Kəlbəcəri işğaldan azad edəcəyik!" kimi anladım. Onda, Fəridə xanım, "Heç bir dəfə də olsun üzərində gəzmədikləri o torpaqları sevməyə, qorumağa məcbur edə bilərikmi onları?" sualını necə anlayasan? Onları buna məcbur eləməyə ehtiyac yoxdu. Oğullar ata-anasının taleyinə düşən ağrıların ünvanını onsuz da sevir, onsuz da o ağrıları qətiyyətləriylə dağlayacaqlar. Onları buna məcbur eləmək haqqında düşünmək günahdı. Vallah günahdı...

Rayonların niyə, nədən işğal olunduğunu təhlilə cəlb eləmək fikrində deyiləm, "ya zəlzələdən, ya vəlvələdən". Zəngilan da döyüşürdü, mühasirədə olsa da, döyüşürdü. İşğal küləyi Zəngilanın sərhədlərini bürüyəndə hərbçilər Zəngilanın müdafiə olunmayacağını hiss elədilər, zəngilanlıları mühafizə elədilər. Əhali Arazı keçənə kimi düşmənlərin qarşısını kəsdilər. Üç qat, dörd qat üstünlüyə malik olan düşmənlə kişi kimi vuruşdular. Əli silah tutanlar da onların sırasındaydı. Onda "Özümüz qoruya bilmədiyimiz..." fikri həmin günlərdə (aylarda, illərdə) döyüşənlərin əməyini itirmək deyilmi? Bu günün yeniyetməsi, çağırışçısı, əsgəri də nəyin necə olduğunu elə bizim bildiyimiz səviyyədə bilir. Onlar torpaqlarımızı işğaldan azad edəcək. Kimsəyə "Niyə qorumadınız?" demədən. Onlardan bunu tələb eləməyə haqqımız olsa da, tələb eləməyəcəyik. Buna ehtiyac olmayacaq...

Silahlı Qüvvələrimiz zaman anlamında dünənki deyil. Onun istər döyüş hazırlığı, istərsə də mənəvi hazırlığı kifayət qədər yüksəkdir. Belə olmasaydı, o, Cənubi Qafqazda ən güclü ordu ola bilməzdi. Torpağı (Vətəni) "Sev" demədən sevən oğullar belə bir ordunun əsgəridi, çağırışçılar belə bir ordunun əsgəri olacaq!..

Bu günün çağırışçıları "Dərdim Füzuli boyda..." məqaləsinin finalına qətiyyən məhəl qoymayacaq, Fəridə xanım. Bunun sizi də sevindirəcəyini varlığımla hiss eləyirəm. 22 illik işğalın sızıltıları yazdırıb sizə "Dərdim Füzuli boyda..."nı. Yaxın vaxtlarda Füzuli boyda bir sevgiylə yaşayanlara, torpaqları qorumağı tələb etmədən qoruyanlara "Sevgim Füzuli boyda..." da yazacağınız günə az qalıb. Bircə dəfə də olsun üzərində gəzmədiyi o torpaqları sevən, qoruyan oğullar yazdıracaq sizə bu yazını. Yerə-göyə inandığınız kimi inanın ki, yazdıracaq! Vaqif Bəhmənli kimi, Nemət Veysəlli kimi, Seyran Səxavət kimi, Əbülfət Mədətoğlu kimi, ... sənin də sevincin olacaq Füzuli boyda!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

---

# Xarici hərbi xronika

## ABŞ HHQ-nin uçuş sınaq mərkəzi

ABŞ HHQ-nin uçuş sınaq mərkəzi Kaliforniya ştatında dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşir. Bazanın sahəsi 120 min hektardır. Sınaq mərkəzində 5000-ə qədər hərbi qulluqçu və elmi-tədqiqat müəssisələrinin əməkdaşı çalışır. Bundan başqa, burada HHQ-nin raket mühərrikləri, ordu aviasiyasının texniki-uçuş laboratoriyası, NASA elmi-tədqiqat mərkəzi və reaktiv kompleks laboratoriya da fəaliyyət göstərir.

Təyyarə və vertolyotlardan başqa sınaq mərkəzində pilotsuz uçan aparatlar, hava və yerüstü bazalı qanadlı raketlər, müxtəlif təyinatlı paraşütlər və təyyarələrdən yüklərin atılması üzrə sistemlərin də sınağı həyata keçirilir. Əsasən bunlar B-1B bombardmançı, "İql" F-15 və "Faytinq-Falkon" F-15 qırıcıları, T-64A təlim-məşq təyyarəsi, radioelektron kompleksli B-53 bombardmanı, qanadlı raketlərin bort sistemləri və s. texnikalardır.

Bazanın qərargahı ümumi inzibati məsələlərlə məşğuldur. Buraya planlaşdırma, sınaqların təşkili və onların yerinə yetirilməsinə nəzarət, texnika istehsalçıları olan şirkət, ictimai və digər təşkilatlarla əlaqə, hüquqi təminat, maliyyələşdirmə, mühafizə və s. daxildir. Mərkəzdə təyyarəçilik sınaq məktəbi də fəaliyyət göstərir ki, burada təyyarəçilər, mühəndislər hazırlanır. Bazada 10-a qədər uçuş-enmə zolağı da vardır. Uçuş zolağının ölçüsü 4500x90 metr təşkil edir. Onun üzərində yerləşdirilən şəkil çəkən aparatla təyyarələrin qalxma-enmə şəkli çəkilir. Burada yerüstü müşahidə cihazları da quraşdırılıb. Təyyarələrin uçuş sınaqlarını həyata keçirmək üçün dörd pilotaj zonalar təyin edilib, onlardan ikisi yerüstü müşahidə cihazları ilə təchiz edilib. Zona 3000 metr hündürlükdə yerləşir. Uçuşları idarə etmək üçün xüsusi bina tikilib ki, burada iki ədəd EHM (Elektron Hesablama Mərkəzi), məlumatların emalı və işlənməsi üzrə yeddi stansiya və altı dispetçer postu vardır. Burada müxtəlif texniki vasitələr də mövcuddur.

Mərkəzin texniki bazasına özünə müxtəlif komplekslər, idarəetmə korpusu, radioelektron sistemi sınağı, məşqlər korpusu, təminat bölməsi və s. daxildir.

Mərkəzin ərazisində təyyarə anqarı vardır. Onlar aviabazanın əsas sahəsində, şimal dairəsində və cənub hissəsində yerləşir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 764
Nüsxə 4730